**19 oktyabr 2018-ci il**

**“SINAM” Məhdud Məsuliyyətli**
**Cəmiyyətinin direktoru**
**cənab Əbülfət Rəhmanova**

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında
Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində tətbiq olunan
“SERP” proqram təminatına dair

**RƏY MƏKTUBU**

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində SERP proqramı (“Müəssisə resurslarının idarə edilməsi sistemi”) 20 noyabr 2014-cü ildən tətbiq edilir. Yeni sistemin tətbiq olunmasından sonra Xidmətin bütün kadr və maliyyə-mühasibatlıq işinin bazası yaradılmış, avtomatlaşmış və tam elektron formaya keçirilmişdir.

Proqramın tətbiqi ilə kadr və mühasibat uçotu işinin təşkili və idarə edilməsi operativləşmiş, ilkin sənədlər əsasında məlumatların sistemə daxil edilməsi, hesabat formalarının əldə edilməsi, uçotun dəqiqliklə aparılması təmin edilmiş, bununla da vaxt itkisinin qarşısı da kifayət qədər alınmışdır.

Tətbiq olunan yeni system Azərbaycan Respublikasının Əmək və Vergi Məcəlləsinə, Milli Hesablar planına uyğun qurulmuşdur.

Qanunvericilikdə və hesablar planında olunan dəyişikliklər və ya yeniliklər sistemdə operativ şəkildə əks etdirilir.

Dövlət Xəzinədarlığı Agentliyinin portalına göndərilən sənədlər sistemdən avtomatik alınır.

Büdcə təşkilatlarının Maliyyə Nazirliyinə ilin sonunda təqdim etdiyi maliyyə hesabtaları il ərzində aparılan əməliyyatların nəticəsində avtomatik yaranır və bu da hesabtalrın vaxtında operativ surətdə təqdim olunmasına zəmin yaradır.

**Daşınmaz Əmlakın Dövlət Reyestri**
**Xidmətinin Maliyyə şöbəsinin müdiri** **Babək Əhmədli**

AZƏRBAYCAN RESPUBLİKASI * DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ XİDMƏTİ * ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ
SƏNƏDLƏR ÜÇÜN